2020-ci il iyunun 19-da Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) yaradılmasının 90 ili tamam olur. Böyük bir tarixə malik olan bu universitet 90 ildir ki, ölkəmizin müasir, daim öyrənmə və öyrətmə ruhuna sahib, vətəninə və millətinə sadiq gənclər yetişdirməkdədir. Prezident İlham Əliyevin göstərdiyi diqqət və qayğı onu təsdiqləyir ki, Azərbaycan Respublikasında təhsilin inkişafı istiqamətində mühüm nailiyyətlər əldə edilmişdir.

Ulu Öndərin 13 iyun 2000-ci il tarixli Fərmanı ilə Azərbaycan Dövlət İqtisad İnstitutu və Bakı Əmtəəşünaslıq İnstitutunun bazasında yeni ali məktəb - Azərbaycan Dövlət İqtisad Universiteti yaradılmış və beləliklə, 1930-cu ildə əsası qoyulmuş kiçik bir universitet bu gün Azərbaycanın aparıcı təhsil müəssisələrindən və Qafqazın ən böyük ali iqtisadi təhsil ocaqlarından birinə çevrilmişdir. Universitetin məzunlarının təkcə ölkəmizdə deyil, dünyanın müxtəlif hissələrində uğurla çalışması, eləcə də elm sahəsində qazanılan nailiyyətlər ölkəmizin yeni imicinin formalaşmasında, müasir gəncliyin idarəetmə potensialının möhkəmlənməsində misilsiz rol oynayır. Böyük məmnunluq hissi ilə qeyd edirik ki, bu gün ölkənin ən aparıcı təhsil müəssisələrindən olan UNEC-də innovativ tədris, təlim texnologiyaları üzərində əsaslı işlər aparılır, elmi uğurlar əlaqələndirilir, ölkədaxili və xarici universitetlərlə ikili diplom, yeni layihələr universitet kollektivinin fəaliyyəti nəticəsində həyata keçirilir. Ölkəmizdə ilk dəfədiki tətbiq olunan distant təhsil əyani təhsilin alternativi kimi düşünülmüş uğrulu layihələrdən biri kimi qəbul olunmuşdur.

UNEC-i 90 illik yubiley münasibətilə təbrik etməkdən böyük məmnunluq hissi keçirirəm və çiçəklənən doğma vətənimizin rifahı, inkişafı naminə bundan sonra da böyük uğurlara nail olacaq bu ali təhsil ocağının bütün professor-müəllim heyətini, elmi əməkdaşlarını və tələbələrini şanlı yubiley münasibətilə ürəkdən təbrik edirəm!